15.05.2009 [16:05]

Fontu böyüt: 11 12 14 16

## QÜRBƏT ELDƏ CAN VERİRDİ ÖLÜMƏ

**Almaniyada yaşayan azərbaycanlı AİHM-in qarşısında intihara cəhd edib**

Almaniyada yaşayan azərbaycanlı Rüstəm İsmayıl Avropa İnsan Haqları Məhkəməsinin qarşısında intihara cəhd göstərib.




APA-nın Avropa bürosunun məlumatına görə, məhkəmənin həyətinə daxil olan R. İsmayıl üstünə benzin töküb və alışqanla özünə od vurmağa çalışıb. Yanğınsöndürənlərin müdaxiləsi ilə intihar cəhdinin qarşısı alınıb. İlk intihar cəhdi alınmayan azərbaycanlı mavi rəngdə olan həb qəbul edərək özünü zəhərləmək istəyib. Ona dərhal ilkin tibbi yardım göstərilib. Hadisə yerinə gələn həkim briqadası ilkin müayinədən sonra soydaşımızın həyatı üçün təhlükə olmadığını bildirib. Həkimlər R. İsmayılın qəbul etdiyi maddənin tərkibinin hələ məlum olmadığını deyiblər. Daha sonra o xəstəxanaya aparılıb və həkim nəzarəti altındadır.

Qeyd edək ki, Almaniyada daimi yaşayış hüququ olan, Azərbaycan vətəndaşı Rüstəm İsmayıl 1970-ci ildə Göyçay rayonunda anadan olub. 1998-ci ildə Almaniyaya turist kimi gedib. R. İsmayıl hazırda 16 – QİÇS, infarkt, vərəm, depressiya, xroniki prostat, ikinci dərəcəli refleksiya, xroniki Hepatit A, ikinci dərəcəli sifilis, babasil və s. xəstəliklərdən əziyyət çəkir. O, 1998-ci ildə turist kimi gəldiyi Almaniyada Azərbaycan vətəndaşlığına aid sənədlərimi itirdiyini, ağır sətəlcəm xəstəsi olmasına baxmayaraq Almaniya qanunlarına uyğun tibbi yardım edilmədən, qış aylarında qanunsuz olaraq küçəyə atıldığını, 1999-cu ildə polislər tərəfindən vəhşicəsinə döyüldüyünü bildirib. O, Almaniya məhkəmələrinin 5 il ərzində həkimə müraciət etməsinə belə, qadağa qoyduğunu deyib. R. İsmayılın məhkəmələrdən təcili olaraq Avropanın başqa ölkəsinə yerləşdirilməsini və müalicəsinə başlanmasını istəyib. O, maddi və mənəvi zərərin əvəzi olaraq 50.000.000 avro dəyərində təzminat tələb edib.

1014 dəfə baxılıb

55 118 ilk 2714101 10
mail.ru рейтинг 14690302 61286 6787